# Perio & Cardio

Sağlam ürək üçün sağlam diş əti

# Ağız boşluğu sağlamlığı mütəxəssisləri üçün tövsiyələr

EFP
European Federation of Periodontology

WORLD HEART FEDERATION

PERIOAZ
AZƏRBAYCAN PARODONTOLOGİYA CƏMİYYƏTİ

2004

DENTAID
Oral Health Experts

# Parodontit və Ürək-Damar Xəstəlikləri bir baxışla

Həm parodontit, həm də ürək-damar xəstəlikləri geniş yayılmış, xroniki və qeyri-yoluxucu

Kəskin miokard infarktı, ürək çatışmazlığı və insult da daxil olmaqla ürək-damar xəstəlikləri ilə parodontit arasındakı əlaqə elmi sübutlarla təsdiq edilmişdir.

Ürək-damar xəstəlikləri ən geniş yayılmış ölüm səbəbidir.

Müalicə olunmayan parodontit diş itkisinə səbəb olur. Buna baxmayaraq, parodontit asanlıqla təyin edilə, qarşısını alına və klinik olaraq nəzarətdə saxlanıla bilər.

Tütün məhsullarının istifadəsi, stres, piylənmə, şəkərli diabet və qeyri-sağlam qidalanma kimi

Ürək-damar xəstəlikləri olan insanlar mütəmadi olaraq ağız boşluğu müayinəsindən keçməlidirlər.

Ürək-damar xəstəlikləri olan insanlarda parodontoloji müalicənin aparılması və ağız boşluğu gigiyenasına riayət olunması kimi vərdişlər kəskin ürək-damar xəstəlikləri hallarının azalmasına yardım edə bilər.

Erkən diaqnostika, profilaktika və ürək-damar xəstəlikləri ilə parodontitin birgə müalicəsi (stomatoloq və kardioloq tərəfindən) böyük əhəmiyyət daşıyır.



Perio & Cardio

EFP

Perio & Cardio

EFP

# Ağız boşluğu sağlamlığı mütəxəssisləri üçün **tövsiyələr**

*Parodont və ürək damar xəstəlikləri insanların sağlamlığına və həyat tərzinə ciddi şəkildə təsir edən geniş yayılmış xəstəliklərdir.*

*Parodont xəstəlikləri (gingivit və parodontit) insanlar arasında ən geniş yayılmış xəstəliklərdir: yaşı 35-dən çox olan insanların 80%-i bu xəstəliklərdən əziyyət çəkir və ağır formalı parodontit– yayılma intensivliyinə görə dünyada 6-cı yeri tutur və 800 milyona yaxın insan (dünya əhalisinin təxminən 10%-i) bu xəstəlikdən əziyyət çəkir.[1,2] Müalicə edilmədiyi halda parodontit diş itkisinə səbəb olur, bu da insanlarda düzgün qidalanma çətinliyinə, nitq qüsuruna, özünə inamın azalmasına və həyat keyfiyyətinin aşağı düşməsinə gətirib çıxarır.*

*Ürək-damar xəstəlikləri ürək və ya qan damarlarını əhatə edir, ürəyin işemik xəstəliyi, insult, hipertoniya, ürəyin revmatik xəstəliyi, kardiomiopatiya və atrial fibrilyasiya da daxil olmaqla bir sıra xəstəlikləri özündə birləşdirir. Dünyadakı bir il ərzində baş verən ölüm səbəblərinin 1/3 hissəsi, Avropada isə 45%-i (4 milyona yaxın) ürək-damar xəstəliklərinin payına düşür. Ölüm sayının çox olması əhalinin yaşının artması, az hərəkətli həyat tərzi və qeyri-sağlam qidalanma ilə bağlıdır.*

*Ürək-damar xəstəlikləri üçün əsas risk amillərinə tütün məhsullarının istifadəsi, yüksək qan təzyiqi, xolesterin və ya triqliseridlərin səviyyəsinin yüksək olması, qlükoza metabolizminin dəyişməsi və piylənmə aiddir. Bunların da bəziləri eyni zamanda parodontitin risk amilləridir. Xoşbəxtlikdən həyat tərzinizdə bir neçə kiçik dəyişikliklər etməklə bunların qarşısını ala bilərsiniz.*

*Parodontit ürək-damar xəstəliklərinin müxtəlif formaları və ölüm halları ilə əlaqələndirilir, bu növ xəstəliklər üçün qarşısı alınan bir risk amili qəbul olunur.*

*Parodontoloji müalicənin ürək-damar xəstəlikləri və risk amillərinə təsiri haqqında əlavə tədqiqatların aparılmasına ehtiyac olsa da, bu müalicənin və ağız boşluğu gigiyenasının tənzimlənməsinin ürək-damar xəstəlikərinin profilaktikasında mühüm rol oynaması artıq sübut edilmişdir. Məsələn, gündə iki dəfə dişlərini fırçalayan və ağız boşluğu gigiyenasına riayət edən xəstələrdə kəskin ürək-damar xəstəlikləri riski daha azdır. Ürək-damar xəstəlikləri müşahidə edilən insanlarda parodontoloji müalicə təhlükəsiz olsa da, xəstələr antikoaqulyant və ya antitrombositar müalicə aldıqda təhlükəsiz hemostatik tədbirlər həyata keçirilməlidir.*

*Ağız boşluğu sağlamlığı mütəxəssisləri xəstəliklərin risk amillərinin qiymətləndirilməsi üçün xəstələrin ətraflı xəstəlik tarixçələrini tərtib etməli, onlara istənilən ürək-damar xəstəliyi riski haqqında məlumat verməli və bu amillərdən hər hansı birinə nəzarət etmək mümkün olmadıqda onları kardioloqa yönləndirməlidir. Parodontitli xəstələrə ürək-damar xəstəliyi riski haqqında məlumat verilməli, xəstələrə fərdi ağız boşluğu gigiyenası rejimi tərtib edilməli və onlar hər iki xəstəliyin kəskinləşməsinə səbəb olan vərdişlər haqqında məlumatlandırmalıdırlar. Ürək-damar xəstəliklərindən əziyyət çəkən xəstələrə ətraflı ağız boşluğu müayinəsi, parodontit diaqnozu qoyulmadığı halda dəstəkləyici muayinə rejimi, diaqnoz qoyulduğu halda isə parodontoloji müalicə təyin edilməlidir.*

*Ağız boşluğu sağlamlığı mütəxəssisləri parodontitli və ürək-damar xəstəliyi olan xəstələrə təyin edilən parodontoloji rejimlərə əməl etməyi (profilaktika, konservartiv və dəstəkləyi müalicələr) tövsiyə etməli, ehtiyac olduqda isə konservartiv müalicə təklif etməlidirlər. Hər hansı cərrahi müdaxilə, o cümlədən, implantın tətbiq edilməsi zərurəti yaranarsa, xəstəni müalicə edən kardioloqu ilə məsləhətləşmə tövsiyyə edilir.*

[1] Tim Footman (editor), Guinness World Records 2001 (London: Guinness World Records Ltd, 2000).

[2] Global, regional, and national incidence, prevalence, and years lived with disability for 354 diseases and injuries for 195 countries and territories, 1990–2017: a systematic analysis for the Global Burden of Disease Study 2017, The Lancet, Vol. 352 (November 2018), 1789-1858.

# Parodontit və ürək-damar xəstəlikləri dünya əhalisi arasında geniş yayılmış xəstəliklərdir

## Ümumi faktlar

### Ürək-damar xəstəlikləri

Dünyada bir il ərzində ölüm halları - 17,9 milyon (ölüm hallarının 1/3 hissəsi)

Avropada bir il ərzində ölüm halları - 3.9 milyon (ölüm hallarının 45%)

**Yayılma:**
2017-ci ildə dünyada 500 milyona yaxın insan ürək-damar xəstəliklərindən təsirləndi

### Parodontit

Dünya əhalisinin 50%-i

**Yayılma:**
Dünyada təxminən 800 milyon insan parodontitin ağır dərəcəli formasından əziyyət çəkir.

**Həm ürək-damar xəstəlikləri, həm də parodontit qeyri-yoluxucu xəstəliklərdir – yəni xəstəlik birbaşa olaraq bir insandan digərinə keçmir.**

**Hər il Avropada ürək-damar xəstəlikləri üçün ayrılan vəsait ümumi səhiyyə xərclərinin €115 milyardını təşkil edir.**

## Ürək-damar xəstəlikləri haqqında ümumi faktlar

Ürək-damar xəstəlikləri ürək və ya qan damarlarına təsir edən xəstəliklərdir və aşağıdakılardan ibarətdir:

- ürəyin işemik xəstəliyi
- insult
- yüksək qan təzyiqi
- ürəyin revmatik xəstəliyi
- kardiomiopatiya
- səyirici aritmiya

Ürək-damar xəstəlikləri koronar arteriyaların xəstəliyi, serebrovaskulyar xəstəlik və periferik arteriyaların xəstəliyi olaraq da adlandırılır.

Xəstəliklərin artma səbəbləri:

- əhalinin yaşının artması
- oturaq həyat tərzi
- işlənmiş qidalar və rafinə olunmuş karbohidratlardan ibarət qeyri-sağlam qidalanma

Ürək-damar xəstəlikləri üçün risk amili olan vərdişlər:

- Siqaret istifadəsi
- Dislipidemiya (yüksək səviyyədə xolesterol və ya trigliserid)
- Hipertenziya (yüksək qan təzyiqi)
- Glikemik statusun dəyişməsi
- Piylənmə

Aşağıdakıları etməklə risk amillərini azaltmaq mümkündür:

- Duz qəbulundan imtina etmək
- Doymuş yağlar və rafinə edilmiş karbohidratların qəbulunun azaldılması
- İdman
- Antioksidant mikroelementlərin qəbulunun artırılması
- Alkoqollu içkilərin orta səviyyədə qəbulu
- Siqaretdən imtina etmək

## Parodontit haqqında ümumi faktlar

Gingivit və parodontit kimi diş əti xəstəlikləri ən yayılmış iltihabi xəstəliklərdəndir.

Müalicə edilmədiyi halda parodontit diş itkisinə səbəb olur, bu da insanlarda düzgün qidalanma çətinliyi, nitq qüsuru, özünə inamın azalması və həyat keyfiyyətinin aşağı düşməsi deməkdir.

Parodontiti olan insanlarda ateroskleroz, glikemik indeks, endotelial disfunksiya və sistemik iltihab daha yüksək səviyyədə muşahidə olunur.

Parodontitlə şəkərli diabet, ürək-damar xəstəlikləri, ağciyərlərin xroniki obstruktiv xəstəliyi və xroniki böyrək çatışmazlığı arasındakı əlaqəni sübut edən bir sıra elmi dəlillər mövcuddur.

Parodontit asanlıqla diaqnoz olunur və klinik nəzarətdə saxlanıla bilir; müntəzəm və yüksək keyfiyyətli dəstəkləyici müalicə ilə müsbət kliniki nəticələrə nail olmaq mümkündür.
Parodontitin uğurlu müalicəsi sistemik iltihabın azaldılması, qlükoza metabolizmasının yüksəldilməsi və daha yaxşı həyat keyfiyyəti ilə əlaqələndirilir.



# Parodont xəstəlikləri və ürək-damar xəstəlikləri arasında əlaqə

## Elmi sübutlar

Parodontitlə koronar arteriya xəstəliyi, miokard infarktı, serebrovaskulyar xəstəliklər, kardioembolik və trombotik insult, periferik arteriyaların xəstəliyi, səyirici aritmiya və ürək çatışmazlığı kimi müxtəlif ürək-damar xəstəlikləri arasında əlaqə olduğuna dair elmi sübutlar var.

**Sübut olunmuşdur ki:**

**Parodontit xəstələrində** əhəmiyyətli dərəcədə endotel disfunksiyası müşahidə olunur.



**Parodontit gələcəkdə ateroskleroz** (damarların daralması) riskinin artmasına səbəb olur







**Parodontit,** ürək-damar xəstəliklərinin profilaktikasında, qarşısı alına bilən risk amillərindən biridir.





**Parodontit nəticəsində** baş verən iltihabi proses aterotrombogenezin (arteriyalardakı ateromaların) meydana gəlməsinə səbəb olur.



**Parodontitin varlığı,** gələcəkdə kəskin miokard infarktı, ürək çatışmazlığı və insult kimi böyük ürək-damar problemləri riskinin artması ilə əlaqələndirilir.

## Əlaqələndirmə səbəbləri

Gingivit və ya parodontiti olan insanlarda, vaxtaşırı qan dövranına daxil olaraq müxtəlif təsirlərə səbəb olan yüksək səviyyədə bakteremiya halları.

• Parodontitli xəstələrdə, aktiv iltihabi proses yaradaraq insanın ümumi sağlamlığına mənfi təsir göstərən, daha yüksək virulentliyə malik olan bakteriyalar müşahidə edilir.

• Parodontitə xas patogenlər (məs. Porphyromonas gingivalis) ateromanın meydana gəlməsini təşviq edir və aterosklerozu sürətləndirir.

• Parodont xəstəliklərinə xas patogenlər ürək-damar sistemi ilə qarşılıqlı reaksiyaya girən və ürək-damar xəstəliklərinin başlanğıcına yol aça biləcək antikorlar (antikardiolipin antikorları) istehsal edirlər.

• Sağlam insanlardan fərqli olaraq parodontiti olanlarda aşağıdakılar müşahidə olunur:
-Ürək-damar xəstəliklərinin tezliyini artıran sitokinlərin və iltihab mediatorlarının səviyyəsinin yüksək olması.
-Fibrinogen (trombositar amillər) səviyyəsinin yüksək olması.
-Xolesterol, aşağı sıxlıqlı lipoproteinlər, triqliseridlər, çox aşağı sıxlıqlı lipoproteinlər, oksidləşmiş aşağı sıxlıqlı lipoproteinlər və s. kimi ürək-damar xəstəliklərinin risk amillərinin yüksək olması.

• Parodontit və ürək-damar xəstəlikləri ortaq genetik amillərə malikdirlər. 9-cu xromosomda eyni zamanda 2-ci tip şəkərli diabet və Alsheymer xəstəliyi ilə əlaqədar olan çoxsaylı məlumatların qeyd edildiyi xüsusi sahə mövcuddur.

## Gələcək tədqiqatlar

Gələcək tədqiqatlar üçün əsas suallar aşağıdakılardan ibarətdir:

•Parodontitli xəstələrdə parodontoloji müalicədən sonra ürək-damar xəstəlikləri hallarının görülmə tezliyi.

•Parodontoloji müalicənin ürək-damar xəstəliklərinin risk amillərinə təsirinin əhali



Perio
& Cardio

# Sağlam ürək üçün sağlam diş əti



Avropa Parodontologiya Federasiyası

# Müalicə

· Dişlərini gündə bir dəfədən az fırçalayan xəstələrdə kəskin ürək-damar xəstəlikləri hallarının artması müşahidə olunur.

· Dişlərini gündə iki dəfə fırçalayan və ağız boşluğu gigiyenasına mütəmadi olaraq əməl edən xəstələrdə kəskin ürək-damar xəstəlikləri hallarının azalması müşahidə olunur.

· Uğurlu parodontoloji müalicə, ənənəvi risk amillərindən asılı olmayaraq, kəskin ürək-damar xəstəlikləri hallarının azalmasına səbəb ola bilər.

· Parodontitin müalicəsinin kəskin ürək-damar xəstəlikləri hallarının qarşısının alınmasında müsbət təsirini təsdiq edən və ya inkar edən kifayət qədər dəlil hələlik yoxdur.

**Bu səbəbdən ağız boşluğu sağlamlığının təmin olunaraq qorunması üçün stomatoloqun müntəzəm ziyarət olunması və mövcud olan diş əti xəstəliklərinin müalicə olunması çox vacibdir.**

## Parodontoloji müalicə ürək-damar xəstəlikləri olan xəstələr üçün təhlükəsizdirmi?

| | |
|---|---|
| Ürək-damar xəstəlikləri olan: | Müalicə təhlükəsizdir. |
| Qanama riski: | Əksər hallarda azdır. |
| Antitrombositar müalicə olan xəstələr: | Hemostatik tədbirlərin təhlükəsizliyinin təmin olunması şərti ilə. Antitrombositar müalicə dayandırılmamalıdır. |
| Antikoaqulyant müalicə olan xəstələr: | |
| Vitamin K antoqonistləri: | Hemostatik tədbirlərin təhlükəsizliyinin təmin olunması şərti ilə |
| Yeni növ oral antikoaqulyantlar: | Hemostatik tədbirlərin təhlükəsizliyinin təmin olunması şərti ilə |



# Nə etməlisiniz



Parodontit və ürək-damar xəstəliklərinin risk amillərini qiymətləndirmək üçün xəstənin stomatoloji və tibbi anamnezini ətraflı tərtib edin.



Bu risk amillərindən hər hansı birinə nəzarət edilmirsə, xəstələrə həkimə müraciət etmələrini təklif edin.



Ürək-damar xəstəliklərinin diaqnozu qoyulmayan, lakin risk amilləri mövcud olan insanlara bu xəstəliyin riskləri haqqında məlumat verin.




Risklərin qiymətləndirilməsini (SCORE) Avropa Kardiologiya Cəmiyyətinin tövsiyyələri əsasında aparılmasını təklif edin.

https://www.escardio.org/Education/Practice-Tools/CVD-prevention-toolbox/SCORE-Risk-Charts

## Parodontiti olan xəstələrdə

- Ürək-damar xəstəliklərinə tutulma riskinin daha yüksək olması haqqında xəstələrə məlumat verin.
- Siqaret istifadəsi, stres, piylənmə və qeyri-sağlam qidalanma kimi hər iki xəstəliyin ağırlaşmasına səbəb olan vərdişlərin idarə edilməsi ilə ürək-damar xəstəliklərinin risk amillərinin azaldıla biləcəyi haqqında xəstələri məlumatlandırın.
- Ağız boşluğu sağlamlığı haqqında maariflendirmə işləri aparın və gigiyena rejimləri tərtib edin (gündə iki dəfə dişlərin fırçalanması, dişlərarası nahiyyələrin təmizlənməsi və diş ərpini azaldan antiseptik məhlulların istifadəsi).

## Ürək-damar xəstəlikləri olan xəstələrdə

- Xəstələri mütəmadi olaraq ağız boşluğu müayinəsinə yönləndirin (o cümlədən, ciblərin zondlanması və zondlama zamanı qanama dərəcəsinin təyinindən ibarət parodontoloji qiymətləndirmə).
- Parodontit diaqnozu qoyulmayıbsa, xəstəyə profilaktik rejim təyin edilməli və mütəmadi olaraq nəzarət olunmalıdır (ildə ən az 1 dəfə).
- Parodontit diaqnozu qoyulubsa, xəstənin ürək-damar problemləri imkan verdikdə dərhal müalicə olunmalıdır.
- Diş itkisi müşahidə olunan xəstələrin düzgün qidalana bilməsi üçün çeynəmə funksiyasının bərpası məqsədi ilə müvafiq ağız boşluğu rehabilitasiyası tətbiq olunmalıdır.

## Parodontiti və ürək-damar xəstəlikləri olan xəstələr

- Tövsiyə olunan profilaktika, müalicə və qulluq prosedurlarının həyata keçirilməsi üçün xəstə dərhal məlumatlandırılmalıdır.
- Ürək-damar xəstəliklərinin səviyyəsindən və qəbul etdiyi dərman preparatlarından asılı olmayaraq, konservativ parodontoloji müalicə tətbiq olunmalıdır.
- Parodontoloji cərrahiyyə və implant tətbiqi ürək-damar xəstəlikləri olmayan insanlarla eyni qaydada tətbiq edilməlidir. Lakin stomatoloq müalicədən öncə xəstənin kardioloqu ilə məsləhətləşməli və aşağıdakılara diqqət yetirməlidir:

- Hipertenziya:
Hər hansı cərrahi proseduradan öncə xəstənin qan təzyiqi ölçülməlidir (xəstə bir qədər rahatladıqdan sonra). Qan təzyiqi 180/100-dən yüksək olarsa, təzyiq stabilləşənə qədər əməliyyat təxirə salınmalıdır.

-Antikoaqulyant və ya antitrombositar dərman preparatlarının qəbulu:

-Parodontoloji müalicələr antikoaqulyant preparatların qəbulundan 18-24 saat sonra həyata keçirilə bilər.

- Stomatoloq xəstənin qəbul etdiyi dərmanlara dəyişiklik etməməlidir və hər hansı bir şübhə yaranarsa, müdaxilədən öncə xəstəni müalicə edən kardioloqa müraciət etməlidir.
- Yüksək qanaxma riski olan xəstələr: Terapiyanın dayandırılması antikoaqulyant terapiyadan məsul olan və/və ya təyin edən tibb mütəxəssisi ilə razılaşdırılmalıdır.
- Dərmanlarda hər hansı bir dəyişiklik müvafiq tibb mütəxəssisi ilə müzakirə olunmalı və razılaşdırılmalıdır.

- Təxirə salına bilən bütün cərrahi müdaxilələr müalicənin sabitləşməsinə və tibb mütəxəssisi ilə müvafiq məsləhətləşməyə qədər təxirə salınmalıdır.
- Eyni zamanda çoxsaylı antikoagulyant və antitrombositar müalicə alan xəstələrə tromboz və qanaxma riskinə görə məsul tibb mütəxəssisi tərəfindən fərdi qaydada nəzarət olunması lazımdır.
- Endokardit riski olan xəstələr mövcud təlimatlara uyğun olaraq əvvəlcədən antibiotik qəbul etməlidirlər.

European Federation of Periodontology

***Avropa Parodontologya Federasiyası*** *tibbin parodontologiya sahəsi üzrə elmi və diş əti sağlamlığının əhəmiyyətini təbliğ edən və əsas devizi "daha yaxşı həyat üçün sağlam diş əti"aparıcı təşkilatıdır. 1991-ci ildə təsis edilən Federasiya dünyada və Avropa qitəsində 16 000-ə yaxın parodontoloq, stomatoloq, alim və ağız boşluğu mütəxəssislərinin üzv olduğu 37 milli parodontologiya cəmiyyətini özündə cəmləşdirir. Federasiya maarifləndirməni elmi sübutlara əsaslandırılmış və ictimai maraq kəsb edən mövzularda həkimləri və ictimaiyyətin müxtəlif təbəqələrini əhatə edən tədbirlər və kampaniyalar vasitəsilə həyata keçirir. Kliniki və elmi parodontologiyanın inkişafı EuroPerio beynəlxalq parodontologiya konqresi, Journal of Clinical Periodontology elmi jurnalı, nüfuzlu universitetlərdə parodontologiya ixtissası üzrə akkreditə olunmuş rezidentura proqramı; ictimaiyyət arasında diş əti sağlamlığının təbliğatı isə 12 May Diş əti Sağlamlığı Günü maarifləndirmə tədbiri kimi fəaliyyətlər Avropa Parodontologiya Federasiyasının tərəfindən həyata keçirilir.*

**www.efp.org**

***Dünya Ürək Federasiyası*** *dünyanın 100-dən çox ölkəsində 200-dən artıq kardiologiya cəmiyyətini və fondlarını təmsil edən əsas təşkilatdır. Federasiyanın əsas məqsədi ümumdünya, regional, milli və yerli təşkilatlar səviyyəsində ölüm hallarının qarşısını alınması və ürək-damar sağlamlığının möhkəmləndirilməsindən ibarətdir. Dünya Ürək Federasiyası sağlam ürəyin hər bir insanın haqqı və*

**www.worldheart.org**

PERIOAZ AZƏRBAYCAN PARODONTOLOGİYA CƏMİYYƏTİ

***Azərbaycan Parodontologiya Cəmiyyətinin*** *əsas fəaliyyəti ölkəmizdə stomatologiyanın parodontologiya sahəsinin inkişafına yardım etmək, həkimlərə və ictimaiyyətə dişlər və implantlar ətrafında diş əti sağlamlığının qorunub saxlanması və diş əti xəstəliklərinin ciddiyyəti, bu xəstəliklərin müasir biliklərə əsaslandırılmış erkən diaqnostikası və müalicəsinin əhəmiyyətini tanıtmaq, nəşrlər və digər elmi-maarifləndirici tədbirlər vasitəsi ilə tibbin digər sahələri ilə interdistiplinar kommunikasiyanı və tədqiqatları inkişaf etdirmək və gündəmə gətirməkdən ibarətdir. Cəmiyyət tərəfindən müxtəlif təhsil müəsissələri, yerli və beyləlxalq təşkilatlar, tanınmış alimlər və mütəxəssislər ilə sıx əməkdaşlıq edilməsi, beynəlxalq rəhbərliklərin və maarifləndirmə nəşrlərinin Azərbaycan dilində tərtib edilməsi ilə yanaşı müxtəlif beynəlxalq elmi və sosial maarifləndirici tədbirlər mütəmadi olaraq həyata keçirilir.*

**www.perio.az**

***Azərbaycan Ürək və Damar Cərrahiyyəsi Cəmiyyətinin*** *əsas vəzifəsi ölkəmizin ehtiyacı olan gənc kadrların hazırlanmasına və ürək-damar cərrahiyyəsinin dünya standartlarına çatdırılmasına xidmət etməkdir. Bu məqsədlə Cəmiyyət tərəfindən 2009-cu ildən etibarən hər iki ildən bir "Bakı Ürək Günləri" Beynəlxalq Konqresini, Dünya Ürək Federasiyasının təşəbbüskarı olduğu "Dünya Ürək Günü" ilə əlaqədar 2010-cu ildən etibarən hər il beynəlxalq Konqres, aylıq seminar və praktiki məşğələlər təşkil edilir. Cəmiyyət bu sahədə beynəlxalq və ayrı-ayrı ölkələrin aparıcı təşkilatları ilə sıx əməkdaşlıq edir, yerli mütəxəssislərin xarici ölkələrdə təcrübə keçməsinə, beynəlxalq konqreslərdə iştirakına dəstək göstərir. Maarifləndirmə işinin daha da genişləndirilməsi məqsədilə 2020-ci ildən etibarən Cəmiyyət tərəfindən "Azərbaycan Ürək və Damar Cərrahiyyəsi" adlı beynəlxalq elmi-praktiki jurnal dərc edilir. Jurnal həm bu sahədə elmi tədqiqat aparan alimlərə, həm də ürək və damar xəstəlikləri ilə məşğul olan praktik həkimlərə və səhiyyə işçilərinə çox faydalıdır.*

**www.audcc.org.az**

Oral Health Experts

***DENTAID –*** *ağız boşluğunu sağlamlığı ilə əlaqədar məhsullarının hazırlanması, istehsalı və marketinqini həyata keçirən və ''insanlarda ağız boşluğu sağlamlığının yaxşılaşdırılması'' missiyası olan nüfuzlu beynəlxalq şirkətdir. Şirkətin innovativ ruhu və ictimaiyyətə bağlılığı bu sahədəki liderliyini təmin edir. DENTAID ərpin ağız boşluğunda səbəb olduğu xəstəliklərin qarşısının alınması, diaqnozu və müalicəsi üçün geniş həll yollarını təklif edir. Bundan əlavə, DENTAID mütəxəssislərin hazırlanması və keyfiyyətin artırılması treninqlərinin keçirilməsini təmin edir və onları gündəlik fəaliyyətlərində dəstəkləyir. Hazırda şirkətin 9 törəmə şirkəti mövcuddur və o, dünyanın 70 ölkəsində filiallar vasitəsilə təmsil olunub: Vitis®, Paro·Aid®, Interprox®, Halita®, and Dentaid Xeros®.*

**www.dentaid.com**

PERIOAZ
AZƏRBAYCAN PARODONTOLOGİYA CƏMİYYƏTİ

***Avropa Parodontologiya Federasiyasının*** *Perio&Kardio maarifləndirmə kampaniyası Azərbaycan Parodontologiya Cəmiyyətinin prezidenti Cavid Əhmədbəyli, vitse-prezidenti və layihələr koordinatoru Hənifə Musayeva və Azərbaycan Ürək-Damar Cərrahiyəsi Cəmiyyətinin sədri Kamran Musayev tərəfindən Azərbaycan dilinə tərcümə olunaraq tərtib edilmişdir. Azərbaycan Parodontologiya Cəmiyyətinin İdarə Heyətinin 18 yanvar 2022-ci il tarixli 1 saylı qərarı ilə tövsiyələr kimi təsdiq edilmişdir.*

*Əhmədbəyli C.R, Musayeva H.H, Musayev K.K. Parodont və ürək-damar xəstəlikləri: Ağız boşluğu sağlamlığı mütəxəssisləri üçün tövsiyələr. Azərbaycan Parodontologiya Cəmiyyətinin elmi nəşrləri, 2021, N.1, A1-12.* ***www.perio.az/periokardio***

---

## Sağlam ürək üçün sağlam diş əti



stomatoloqu və kardioloqu müntəzəm ziyarət edin

dişlərinizi gündə 2 dəfə fırçalayın

fəal olun, məşq edin

sağlam qidalanın, çəkinizə nəzarət edin

siqaret çəkməyin

---

**perio**and**cardio**.efp.org
www.perio.az/**periokardio**
www.audcc.org.az/**periokardio**